**“Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994,   18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998,   3, maddə 142; 2002,   6, maddə 328; 2004,   7, maddə 505; 2006,   12, maddə 1033; 2007,   1, maddə 4; 2010,   5, maddə 386; 2011,   2, maddə 71,   12, maddə 1086; 2012,   2, maddə 62; 2013,   5, maddə 466,   7, maddə 796; 2016,   2, maddə 198; 2017,   12 (I kitab), maddə 2264) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin ikinci hissəsinin dördüncü abzasında “gözlərinin rəngi,” sözlərindən sonra “əl-barmaq izləri,” sözləri əlavə edilsin.

2. 9.4-cü maddədə “vətəndaşa” sözü “vətəndaşdan əl-barmaq izləri götürülmür, habelə ona” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2018-ci il
1304-VQD